# MƏDƏNİYYƏT ETALONLARI TƏDQİQATIN EPİSENTRİNDƏ



*Əkbər ƏLİOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru*

*(Əvvəli ötən sayımızda)*

Bu cəhətdən Rahid Uluselin elmi üslubu həm poetik düşüncə imkanları baxımından, həm cümlələrin poetik sintaksisinin sistematikliyindəki, mükəmməl fikir axarlarının dərinliyi ilə zənginliyi, həm də elmi üslubun qanunlarının sərt görkəminin möhkəmliyi, eləcə də bu möhkəmliyin mayasında fəlsəfi hökmlərin lirik-dramatik, lirik-romantik səciyyədə gerçəkləşməsi baxımından öz dəyər ölçüsünü və miqyasını qazanır. Bu əlamətlərin hər biri vəhdətdə, ayrıca tədqiqat mövzusu ola bilər və olmalıdır. Fəqət bir şərtlə: bunun üçün gərək onun bütünlükdə elmi tədqiqat əsərləri analitik təfəkkürün süzgəcindən keçirilə və obyektiv olaraq əlamətdar cəhətləri təqdir oluna, yaxud polemik mübahisə predmetinə çevrilmək üçün araşdırıcıya şans verə. İndiki vəziyyətdə bu, bizim potensial hazırlığımızdan, fiziki imkanlarımızdan yüksəkdə duran amil olduğunu etiraf etmək ədalətli bir iş olardı. Əslində, məlum kitaba bu yöndən yanaşmaq, onun dəyər ölçüsünü, başlıca məziyyətlərini aşkarlamaq daha məqsədə uyğun olardı. Məhz belədə onun alim təfəkkürünün meridianlarının xəritəsini cızmaqla daha qanunauyğun və şərəfli yanaşma mövqeyini ortalığa qoyula bilinər. Ancaq nə gizlədək, Rəsul Rza poeziyasının məzmun genişliyi, poetik düşüncəsinin vüsəti, tükənməzliyi Anar təfəkkürünün fenomenal zənginliyi, ədəbi-mədəni fəaliyyətinin əhəmiyyət böyüklüyü. Nəhayət, şəxsi keyfiyyətindəki «gizli» saçmaların təsir arenasının fikir çəkərliyi, böyük ziyalılığının öz içində söz mükəmməlliyi, ümumiyyətlə, bədii sənətkarlığının çoxcəhətli məziyyətləri bizi öz ardıyca elə çəkib aparır ki, az qala tədqiqatçının ədəbi-bədii simasını, elmi təfəkkürünün qatlarını araşdırmağı bizə unutdururlar. Bu, ritorik etiraf olsa da, real gerçəklik üzərində dayaqlanır. Biz istəsək də, istəməsək də belədir. Təbii ki, bu, bizim şəxsi fikrimizdir, kimlərisə qane etməyə, yaxud fərqli arqumentlərin doğuluşuna səbəb ola bilər. Ötək yenə Rəsul Rza poeziyasının müəllif tərəfdən dəyər ölçülərinrin sərgilənməsinə.

Birmənalı demək lazımdır ki, XX əsr Azərbaycan poeziyasında fəlsəfi yükün ən ağırını Rəsul Rza çəkmişdir. Ümumiyyətlə, fəlsəfi lirika onun şeiriyyət məzmunun fikir çəkisi, məna ənginliyi, oxucu düşüncəsini arxasınca çəkib aparma siqlətinin davamlılığı, bəşəriyyətə gərəkliliyi baxımından Rəsul Rza öz dövrü üçün «yeganə nəhr» - dəryadır. Rahil Ulusel öz araşdırmasında bu yeganəliyi nəhrə «Mədəniyyətin doğma məkanı - fəlsəfi lirika», «Fəlsəfi lirika nəzəri-tənqidi polemikada», «Əamanla fəlsəfi dialoq», «Planetar Repesans», «Təzadlar», «Humanizm - sivilizasiyanın ən başlıca ideyası», «Dünya mənim evimdir», «Kədər və inam», «Verlibr poetikası», «Ağırlaşsın yükü fikrin, təzələşsin qanı şeirin» başlıqları altında güzgü tutaraq Rəsul Rzanın fəlsəfi lirikasının həssas, incə ruhunu, dərin qatlarını, insanlığın bütün dönəmlərdə yer övladı olaraq mürəkkəb aləminə ekskursivliyini, həyatın sərt dönəmlərinə qranit möhkəmli vüqarını, səmavi aləmin poetik təqdimatı və bəşəri münasibətlər kolleksiyasını və s. kimi əlamətdar cəhətlərini tədqiqat obyektinə alaraq, elmi-bədii və ədəbi düşüncəsini səfərbərliyə çağıraraq və bunlara arxalanaraq müasir ədəbiyyatşünaslıq elminin nailiyyətləri hüdudunda dəyər verir. Vaxtilə bu sahədə apardığı tədqiqatın aparıcı kordinatlarından bəhrələnməsi bu başlıqlar altında verilmiş mətnlərin effektivliyini artırmışdır.

İnsanşünaslığın yayıcılıq missiyasını, dünya poeziyasının Olimp zirvəsinri fəth edən «Çağırdım ey insanlar, cavab verdi mənə neçə min ağız», dağlar üstündən, meşələr üstündən aşaraq», «Mən torpağam» deyə məramın ifadə gücünə bənzər şeir nümunəsi göstərmək indi əliçıraqlı insan axtarmaq kimi bir şeydir. Rəsul Rza poeziyasının məna ənginliyi, poetik düşüncəsinin metaforik təbiətinin tükənməzliyi və dərinliyi bununla da fikirləri hərəkətə gətirmək qüdrəti Rahid Uluselin fərdi analizinin ən son məqsədi bu məramların təqdimatına yönəlmişdir. Kitabın Azərbaycan ədəbi-mədəni mühitindəki dəyəri elə bununla ölçülməlidir.

Repressiya... Hadisiz, Cavidsiz, Müşfiqsiz, eləcə də Vürğünsüz, Rəfilisiz, S.Rəhmansız... "Rəsul təsəvvür olunan deyil, dövr və zaman «etiraf janrı» səpgisində «qızılgül olmayaydı», «Xatirələr düzümü» poemalarında klassik bir uçalıqla, könül ağrılarıyla səpgiləndi. Birinciyə - «Qızılgül olmayaydı» poemasına R.Uluselin münasibəti belədir: Rəsul Rzaya qədər heç kimin belə cəsarətlə münasibət bildirmədiyi o çağın yaradıcı insanlarının faciələrini özündə bütün psixoloji dramatizmi ilə əks etdirən bir tarixi-poetik sənəddir». Rəsul Rza şeirinin mübariz xarakteri Azərbaycan ədəbi mühiti təsərrüfatında boy artımına sahib durub və sonralar da bu inkişafı həm ədəbi, həm də fərdi fəaliyyətində gerçəkləşdirib. Müəllif şairdən gətirdiyi dörd misralıq nümunədə həmin mübarizliyin geneloji təsnifatını açıqlayır:

...İnsan davamlıdır, hər dərdə dözər!
Ayağı kəsilsə, sürünər gəzər .
Qolları olmasa insan dişiylə,
Vuruşar dövranın gəc gərdişiylə.

Biz bu vuruşu həm ensiklopediyaya rəhbərlik edən də, həm də «rənglərin» tənqidinə dözüm göstərib onların nadir poetik sənət əsəri olduğunu sübut edəndə də gördük. Və A.Abdullazadənin «Od nə çəkdi» monoqrafiyasında oxuduq. Müəllif üçün önəmli gəzişmədir ki, o, ustadın poeziyasındakı fəlsəfi notları fəlsəfi lirikanın anatomiyası fonunda sərgiləyir, bu münasibətlə fəlsəfi fikir bahadırlarının düşüncələrinə söykənməklə fərdi mühakimələrini daha da dayanıqlı edib: «Fəlsəfi şeir - poeziyada özgür fəlsəfi dünyagörüşünün, sənətkarın müəyyən fəlsəfi ideyasının, əxlaqi məramının, dini baxışlarının təcəssümünə geniş poetik düşüncə məkanı yaradan bir yaradıcılıq sahəsidir. Fəlsəfi poeziya, əslində, poeziya dünyagörüş poeziyasıdır; fəlsəfi şeir gerçəkdən - şeir konsepsiyasıdır» sitatıyla Rəsul Rza lirikasının qaynağını təyin edir, onun möhtəşəm fikir və düşüncə bahadırlığı zirvəsini açıqlayır. Əslində, böyük ustadın ədəbiyyatımız tarixində yerini, mövqeyini məhz bu dəyərlər müəyyən edir, dünya ədəbi prosesi salnaməsinə verdiyi töhfəni məhz bu ölməz lirika möhürləyir. Yuxarıda qeyd etdiyimiz başlıqlar ən ümumi halda bu fikrin reallığına sərgilənib, onların məzmun arenası bu ideyaya yönləndirilib. Buna görə də kitab haqqındakı düşüncələrimizi Rəsul Rza fenomeninə köklənmiş vəziyyətdə genişləndirməklə «çox əzizi xar» olmaq təhlükəsiylə göz-gözə dayanmaq istəməzdim; digər məsələləri oxuculara kitabın özünü oxumaqla mənimsəməyi məsləhət görərdim. Şairin «Ömürdən səhifələr»i, «Vaxt var ikən», «İnsan şəkli»» «Açın qapıları insan gəlir», «Mən torpağam», «Yer oğlu», «Gələcəyə səyahət», «Rənglər» və s. kitab və şeirləri ədəbiyyatımızın qızıl fondunun bəzəyidir, çəkəridir, daim əzəli, əbədi postamentidir. Cəsarətlə demək olar ki, Rəsul Rza poeziyası poetik fikir yükünün dərinliyi, özəlliyi, fəlsəfi düşüncənin xisləti, bəşəriliyi baxımından yuxarıda qeyd etdiyimiz kimi, yeganeyi nəhrdir. Bu, məhz ustadın əzəmətli, qətiyyətli, olduğu qədər də kövrək şəxsiyyəti ilə doğma ananın iki övladlarıdır. Yox, bir yeganə övladıdır. Poetik təəssüratın görkəmi R.Rzanı, R.Rzanın görkəmli poeziyasını tamamlayır.

Vaxtilə Çingiz Aytmatov deyirdi: Azərbaycanda bir ər kişi vardır, adına Rəsul Rza deyərdilər.

Rahid Ulusel bu tədqiqat kitabında ər kişidən danışdı, onun ərənliyinin parametrlərini varaqladı. Və ona ölməzlik damğası vurdu. Xeyirin təntənəsinə xidmətin nümunəsi olacaq damğa. Biz də bu möhrə şərikliyimzə son verməklə müasir Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı xəzinəsində Anar fenomeninə təhlilçi münasibətinin şərhinə rəvaca keçid edək.

Kitabın III fəsli «Anar yaradıcılığı: şüuraltı ehramları ilə» başlığı ilə açılır. Və iki dəyərlə təqdim olunur:

1. «Anarı Azərbaycan ədəbiyyatının bütöv bir dövrünün rəmzi saymaq olar (Ramiz Rövşən).

2. «Azərbaycan mədəniyyətinin tarixi-genetik bütövlüyünün dərk olunması və yaradılmasında müstəsna xidmətləri olan, XX əsri XXI əsrə və gələcəyə daşıyaraq, zamanların sınmaz dəyərlər körpüsünü salan mütəfəkkir sənətkarlarımızdan biri də şübhəsiz Anardır» (Rahid Ulusel).

Bu qiymətlər zamanın, tarixin sınaqlarından çıxan, yoxlanılan vicdani oyanışın həqiqət səsləridir. Amma nə edəsən, Anar da arxadan qılınclayanlara tuş gəldi və səbrlə, təmkinlə «Sən öz doğru yolunla gedirsən, get, qoy arxanca nə danışırlar danışsınlar» (K.Marks) ulu həqiqətinin yolu ilə gedərək xalqa bağlı məslək və əqidəsinə sadiqliyin aristokratsayağı, klassik nümunəsini bəyan etdi; şəxs nümunəsi və əsərlərilə.

Kimlər onun haqqında məqalələr yazmayıb, kitab bağlamayıb. Lap elə bu yaxın aylarda Əlisəfdər Hüseynovun «Kinomuzun Anar fenomeni» ilə tanış oldum. Onun kinomuza gətirdiyi yenilikləri doktorluq mövzusunun predmetinə çevirmək olar. Vaxtilə onun «Dədə Qorqud dünyası» essesini namizədlik dissertasiyası səviyyəsində görmüşdüm. Təbii ki, folklor tədqiqatçısı kimi bu fikrə gəlmişdim. Bu dəyərlər Anar fenomenliyinin bir təkərciyi və vintciyi misalındadır.

Rahid Uluselin Anar haqqında düşüncələri onun haqqında yazılan seriallar silsiləsində fərqli boy göstərənliyi diqqətəlayiqdir. Təhlilçinin bu kitabında Anar haqqında bilmədiyim nə qədər yeni faktlarla zənginləşdim, daşıdığı ictimasi missiyanın əhatəliliyi əsərlərinin çap olunduğu xarici məkanların bolluğu haqqında yazanların sayılmazlığı doğrudan-doğruya bizi «heyrət ey büt...» nidasıyla üz-üzə qoydu, qəlbən ona bəslədiyim hörmət hissi sinəmdə öz məkanını böyütdü və düşündüm ki, mən kim olasıydım ki, onun romanı haqqında fikir söylədim, özü də mərkəzdən uzaq region (Göyçay) çəpəri daxilində, ancaq neyləsən ki, hər kəsin öz çəkisində nəğməsini oxuması onun mənəvi haqqıdır. Onun ədəbi-mədəni, ictimai-siyasi fəaliyyətindən bixəbərlərə təkcə bir faktla cavab vermək olar: R.Ulusel məlumatı məncə yetərlidir: «Xalqımız bunu heç zaman unutmayacaq ki, 1988-ci ildən bəri Azərbaycanın ən ağır günlərində Azərbaycanın Ali Sovetinin deputatı, SSRİ Xalq deputatı və SSRİ Ali Sovetinin üzvü Anar istər Azərbaycan parlamentində, istərsə də SSRİ-nin ali məclisində Qarabağ problemi xüsusunda dəfələrlə çıxış edib. Başqa Azərbaycan deputatları ilə birlikdə bir neçə dəfə Qorbaçovla görüşüb və ona Azərbaycanın haqq səsini çatdırıb. Yanvar hadisələrində günahkarların cəzalandırılmasını tələb edib. 1990-cı ilin Qara Yanvar gecəsindən sonra Anar rus dilində «Müsibət» adlı müraciət yazıb və səhəri gün yüzdən artıq ünvana - SSRi xalq deputatlarına və Yazıçılar İttifaqlarına göndərib. Yanvarın 21-də Akademiyada Azərbaycan ziyalılarının etiraz iclasını Anar aparıb. AYB-ə növbəti sədrliyinə ağız büzənlər xəbərdardırlarmı ki, «Azərbaycanda milli-siyasi hərəkat başlayan çağdan bu çağın milli-mənəvi, əxlaqi-intellektual təməlini yaradanlardan biri olmuş Anara müstəqil Azərbaycanın ilk Milli Məclisini açmaq, ilk iclasını aparmaq şərəfi nəsib olub».

***(Davamı var)***